# Azərbaycan Brüssel razılaşmasına sadiqliyini nümayiş etdirir

***Avropa İttifaqı (Aİ) bu gün dünyada ən böyük siyasi və iqtisadi mərkəzlərdən biri kimi tanınır, fəaliyyətində Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılmasına qərəzsiz və bitərəf yanaşmaya ilə diqqət çəkir. Burada ən mühüm cəhət isə odur ki, bu nüfuzlu quruma Azərbaycan və Ermənistan tərəfdən də etimad göstərilir.***



Son illər Azərbaycanla Aİ arasında münasibətlərin yeni inkişaf səviyyəsinə yüksəlməsi, bu təşkilatla enerji təhlükəsizliyinin təmin edilməsində respublikamızın rolunun daha da yüksəlməsi xüsusi diqqət çəkib. Prezident İlham Əliyev ötən il dekabrın 14-də Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibəsində "Avropa İttifaqı hazırkı böhranın öhdəsindən necə gələ bilər?" sualına cavabında Azərbaycanın ölkə iqtisadiyyatının şaxələndirilməsi, neft və qaz asılılığının azaldılması ilə bağlı mühüm layihələr reallaşdırdığını bildirib. Eyni zamanda, respublikamızın ümumi daxili məhsulunun strukturunda neft və qaz amilinin 50 faizdən aşağı olduğunu diqqətə çatdırıb. Azərbaycan Prezidenti daha sonra deyib: "İxraca gəldikdə isə, əlbəttə, bu, bizim əsas ixracımızdır və təbii qaza gəldikdə, bu ixrac artmaqdadır. Hazırda qazın qiyməti ilə bağlı, necə deyərlər, böhranın səbəbi mənə məlum deyil və səmimi desəm, bu, məni maraqlandırmır. Biz isə, öz növbəmizdə, ev tapşırığımızı yerinə yetirirdik, neft və qaz sektoruna milyardlarla ölçülən sərmayə cəlb edirdik və XXI əsrin ən mühüm infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizi üzərində çalışırdıq. Həmin layihə ötən ilin son günündə başa çatdırılmışdır. Layihənin dördüncü seqmenti – Transadriatik qaz kəməri 2020-ci il dekabrın 31-də istismara verildi və həmin vaxtdan bizim Avropaya ixracımız başladı. Bundan əvvəl bizim ixrac bazarımız əsasən Türkiyə və Gürcüstan idi. Beləliklə, bizim qazımızı yeni alan ən böyük istehlakçı İtaliyadır, sonra isə Yunanıstan və Bolqarıstandır. Burada coğrafiyanı genişləndirmək üçün potensial mövcuddur".

Dövlətimizin başçısı müsahibəsində, yuxarıda qeyd edilənlərlə bərabər, həmçinin ötən il Azərbaycanın Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac etdiyini, 2022-ci il 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qaz ixracını planlaşdırdığını vurğulayıb.

Ölkəmizlə Aİ arasında münasibətlərin ən yüksək səviyyədə qurulması Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılmasına da öz müsbət təsirini göstərib. Aİ Şurasının Prezidenti Şarl Mişellə Prezident İlham Əliyev arasında intensiv dialoq və təmaslar tərəflər arasında sülh sazişinin imzalanması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanmasını, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması kimi məsələlərin həlli yönündə əməli addımlar atılmasını şərtləndirib.

Aİ dövlətimizin başçısının regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Son iki ayda Azərbaycan Prezidenti ilə dünya liderləri, dövlət və hökumət başçıları arasında dialoq, telefon danışıqları Prezident İlham Əliyevin dünyada böyük nüfuzunun göstəricisidir.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 19-da Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı nitqinin əvvəlində Brüssel səfərini xatırladaraq, Aİ Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Ermənistan Baş naziri Nikol Paşinyan arasında Qarabağın təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərinin müzakirəsinə həsr olunan görüşün konstruktiv keçirildiyini, düzgün istiqamətdə mühüm bir addım atıldığını, irəliləyişə nail olunduğunu bildirib. Ölkə rəhbəri daha sonra deyib: "Düşünürəm ki, bu, başlanğıc nöqtəsi idi. Çünki biz sərhəd üzrə komissiyaların və eyni zamanda, sülh sazişi üzrə işçi qrupların yaradılması barədə razılığa gəldik. Biz bununla bağlı əvvəllər də danışırdıq və bildiyiniz kimi, İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Azərbaycanın mövqeyi həmişə ondan ibarət idi ki, biz sülh sazişi ilə bağlı danışıqlara başlamalıyıq. Hesab edirəm ki, rəsmi başlanğıc nöqtəsi aprelin 6-da Brüsseldə baş tutdu… Hesab edirəm ki, bu irəliləyişi davam etdirməyimiz və hər iki tərəfin razılaşmalara riayət etməsi mühüm əhəmiyyət kəsb edir".

Prezident İlham Əliyev söhbətində daha sonra vurğulayıb ki, Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də bu ölkənin Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların – həm dəmir, həm də avtomobil yollarının açılması ilə bağlıdır. Azərbaycan ərazisində dəmir yolunun 100 kilometrdən artıq xəttinin 60 kilometrlik hissəsi artıq hazırdır, tikintinin gələn il tamamlanacağı nəzərdə tutulur. Lakin təəssüf ki, Ermənistanda bu işə laqeyd münasibət bəslənilir. Burada, hətta texniki-iqtisadi əsaslandırılmaya belə başlanılmaması bunu deməyə əsas verir.

Dövlətimizin başçısı nitqində Zəngəzur dəhlizinin mühüm komponentlərindən birini təşkil edəcək avtomobil yolunun da Azərbaycan tərəfində sürətlə tikildiyini, magistralın böyük hissəsinin artıq inşa olunduğunu, növbəti ilin sonuna kimi bu infrastrukturun Ermənistan sərhədinə çatdırılacağının nəzərdə tutulduğunu xatırladıb: "Lakin təəssüf ki, Brüssel görüşü zamanı Ermənistanın baş naziri coğrafi koordinatları qeyd etməmişdir. Mən fevralın 4-də videokonfrans vasitəsilə keçirilən görüşdə bu məsələni qaldırdım, lakin cavab olmadı. Aprelin 6-da mən yenidən yolun coğrafi koordinatlarının təqdim edilməsini istədim, lakin cavab olmadı. Ümidvaram ki, tezliklə onu əldə edəcəyik".

Prezident İlham Əliyev Aİ Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, ümumilikdə, Brüsseldəki görüşün nəticələrini müsbət dəyərləndirdiyini, bu barədə Azərbaycan ictimaiyyətinə açıqlama verdiyini bildirib, eyni zamanda, Ermənistanın baş nazirinin də normallaşma prosesi və Ermənistanın ölkəmizin irəli sürdüyü 5 prinsipi qəbul etməsi barədə açıq şəkildə danışmasını dönüş nöqtəsi kimi qiymətləndirib. Dövlətimizin başçısı hazırda hər iki tərəfin – Ermənistanla Azərbaycanın bu rəsmi açıqlamasından sonra bütün ciddiyyətlərin masa üzərində sübuta yetirilməsinin zəruriliyini qeyd edib. Eyni zamanda, bu məsələdə Aİ-nin, xüsusilə də artıq prosesə yaxından qoşulan Prezident Şarl Mişelin səylərinə son dərəcə diqqətlə yanaşdığını vurğulayıb.

Yeri gəlmişkən, Aİ Şurasının prezidenti Şarl Mişel aprelin 19-da öz "Twitter" səhifəsində bir daha Aİ Şurasının Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizliyin bərqərar olması üzrə bütün səyləri dəstəklədiyini bildirib: "Mən Brüssel müzakirələrimizin davamı olaraq Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqlar keçirdim. Aİ Şurası Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizliyin bərqərar olması üzrə bütün səyləri dəstəkləyir", – Ş.Mişel yazıb.

Bu məqamda onu da qeyd edək ki, Prezident İlham Əliyevin Brüsselə məlum səfəri səfəri, Aİ Şurasının Prezidenti Şarl Mişel, Ermənistan baş naziri Nikol Paşinyanla görüşləri və əldə olunmuş nəticələr dövlətimizin başçısının dünyada böyük nüfuzunun göstəricisi, Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğurudur.

Xatırladaq ki, ölkə rəhbərinin Brüsselə səfər çərçivəsində keçirdiyi görüşlər və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə yeni format – Brüssel sülh gündəliyi yaranıb. İlk üçtərəfli görüş isə 2021-ci il dekabrın 14-də keçirilib, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları keçirilib.

Yeri gəlmişkən, Azərbaycanın iki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təkliflərində beş prinsipdən biri tərəflərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanımasıdır. İkincisi, bu dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. Üçüncüsü, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinilməsidir. Dördüncüsü, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, nəhayət, beşincisi isə nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın yaradılmasıdır. Təbii ki, məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönələn danışıqlar aparılaraq ikitərəfli sülh sazişi imzalana bilər.

Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev bildirib ki, 5 prinsip ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir: "Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təkliflə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir. Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da yəni, aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Yəni, əgər bu 5 prinsipi qəbul edirsə, – bu, aprel görüşündə təsdiqləndi, – bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir".

Azərbaycan münasibətlərin normallaşdırılması üçün özünün xoş niyyətini nümayiş etdirir. İki ölkə arasında münasibətlərin normallaşması ilə bağlı Azərbaycanın mövqeyi aydın və ardıcıldır. Rəsmi Bakı münaqişə sonrası iki ölkə arasında münasibətlərin normallaşmasının və bölgədə sülh quruculuğu məsələlərinin vacibliyini nəzərə alaraq bu xüsusda təkliflərini irəli sürüb və bu istiqamətdə irəliləməyə hazırdır.

Göründüyü kimi, bu prinsiplər beynəlxalq hüququn normalarına tamamilə uyğundur. Bunların hər biri BMT-nin Nizamnaməsindən başlamış, bütün beynəlxalq təşkilatların sənəd və konvensiyalarında da öz əksini tapıb. Bu baxımdan, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində irəli sürdüyü prinsiplər regionda sülhü təmin edə biləcək ən səmərəli təkliflərdir.

Sülh gündəliyinin əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür. Tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, birinci növbədə, sərhədlərin delimitasiyası prosesinə başlaması barədə razılıq əldə olunması da mühüm önəm daşıyır. Aİ-nin minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcə də quruculuq işlərində Azərbaycana dəstək göstərməsi də gündəlikdə xüsusi yer tutur. Nəqliyyat-kommunikasiya xətlərinin qurulması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, habelə İqtisadi Məşvərət Şurası mexanizminin yaradılmasının qərara alınması da sülh gündəliyində qeyd olunan əhəmiyyətli bəndlərdir.

Sənəddə "Dağlıq Qarabağ" ifadəsi və ya keçmişin qalığı olan ATƏT-in Minsk Qrupu (MQ) həmsədrlik institutuna istinad olunmaması da, əslində, önəmli məqamdır. Bu, eyni zamanda, onu göstərir ki, Aİ 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində bu gerçəkliyə əsaslanır.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*